# Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır

Sentyabrın 19-da Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin Beynəlxalq münasibətlər komissiyasının sədri Volkan Bozkırla görüşüb.

Görüşdə Azərbaycan və Türkiyə arasında sarsılmaz dostluq, qardaşlıq əlaqələrinin olduğunu söyləyən Ziyafət Əsgərov bildirib ki, münasibətlər strateji xarakter daşıyır. Sentyabrın 15-də keçirilən möhtəşəm paraddan qürurla söz açan Ziyafət Əsgərov Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu tədbirdə iştirakının xüsusi önəm daşıdığını vurğulayıb: "Bu, o deməkdir ki, Türkiyə 100 il əvvəl olduğu kimi bu gün də Azərbaycanın yanındadır. Müəyyən qüvvələr istəməsələr də, biz həmişə birlikdəyik".

Ziyafət Əsgərov qonaqlara Azərbaycanın həyata keçirdiyi irimiqyaslı layihələr barədə ətraflı məlumat verib. O, qardaş ölkə ilə müxtəlif sahələrdə mükəmməl əməkdaşlığın mövcud olduğunu bildirərək qeyd edib ki, ölkələrimiz beynəlxalq təşkilatlarda da eyni mövqedən çıxış edir. Türkiyə Azərbaycana ən çox investisiya yatıran ölkələrdən biridir və Azərbaycan da dost ölkəyə daha çox investisiya yatırmağa çalışır. İlk xarici səfərini Azərbaycana etdiyini vurğulayan Volkan Bozkır Azərbaycan parlamentinin 100 illik yubiley mərasimində iştirak edəcəyini söyləyib. Onun sözlərinə görə, Türkiyə Azərbaycanla mövcud əməkdaşlığını başqa formatda genişləndirmək niyyətindədir. Azərbaycan-Türkiyə-Gürcüstan formatında növbəti görüşün yenə Bakıda baş tutacağını diqqətə çatdıran qonaq qeyd edib ki, qardaş ölkə Azərbaycan-Türkiyə-İran, Azərbaycan-Türkiyə-Pakistan, Azərbaycan-Türkiyə-Gürcüstan formatlarını genişləndirməyi planlaşdırır.

***F.ƏHMƏDOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2018.- 20 sentyabr.- S.2.